**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN TƏLİM FƏALİYYƏTİNDƏ NƏZARƏT VƏ ÖZÜNƏNƏZARƏT BACARIQLARININ FORMALAŞDIRILMASI YOLLARI

İxtisas: 5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Tura Əli qızı Əliyeva**

Fəlsəfə doktoru elmi
dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Naxçıvan – 2023**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin Ümumi pedaqogika kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: pedaqoji elmlər doktoru, professor
**Şahin Tağı oğlu Tağıyev**

Rəsmi opponentlər: pedaqoji elmlər doktoru, professor
**Akif Nurağa oğlu Abbasov**

pedaqoji elmlər doktoru, professor
**Şəhla Qasım qızı Əliyeva**

pedaqogika üzrə fəlsəfə doktoru
**Solmaz Rafiq qızı Cabbarova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Müəllimlər İnstitutunun nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: ________ pedaqoji elmlər doktoru, professor
**İsmayıl İsrafil oğlu Əliyev**

Dissertasiya şurasının elmi katibi: ________ pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Qızıltac Tarverdi qızı Şahbazova**

Elmi seminarın sədri: ________ pedaqoji elmlər doktoru, professor
**Ləzifə Nağı qızı Qasımova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** İnsanın öz hərəkətlərinə tənqidi yanaşması, onları yoxlamaq və qiymətləndirmək bacarığı yoxdursa, o zaman özünün düşüncə tərzini və fəaliyyətini düzgün istiqamətləndirə bilməsi çətindir. Şəxsiyyətin bütün fəaliyyətini və ictimai qarşılıqlı münasibətlərini öz şəxsi fəaliyyətləri istiqamətləndirir. Bu fəaliyyətin düzgün qiymətləndirilməsi və ona nəzarəti hərtərəfli inkişaf etmiş və formalaşmış insanın mühüm xüsusiyyəti hesab olunur. Nəzarət və özünənəzarət elə bacarıqlardır ki, onun ictimai fəaliyyətə daxil edilməsi bu və ya digər şəxsi mümkün səhvlərdən və uğursuzluqlardan sığortalayır.

"Azərbaycan Respublikası təhsil sahəsində islahat proqramı"nda göstərilir ki, "*təlim – aktiv fəaliyyət növlərindən biri kimi, ilk növbədə, proses zamanı tədris materialını və onun həcmini deyil, bu prosesdə aktivlik vəziyyətində olan qüvvələrin inkişafını nəzərə almalıdır. ... Təlimdə əsas olan konkret bilik və bacarıq deyil, təlim prosesində iştirak edən qüvvələrin inkişafıdır*"[1].

Təlim prosesində nəzarət və özünənəzarətin başlıca məqsədi – şagird tərəfindən təlim fəaliyyətinin fərdi məqamlarını yoxlamaqdan, qiymətləndirməkdən, əldə edilmiş nəticələrin təhlilini aparmaqdan və onları əlaqələndirməkdən və nəhayət, bütün təlim fəaliyyətlərini məqsədyönlü istiqamətə yönəltməkdən ibarətdir. Şagirdlərdə nəzarət və özünənəzarət bacarıqlarının inkişafı təkcə təhsil problemlərinin düzgün həllinə deyil, eyni zamanda hərtərəfli inkişafa və məktəblilərdə müsbət şəxsi keyfiyyətlərin tərbiyəsinə kömək göstərir. Şəxsiyyətin öz hərəkətlərinə nəzarət edə bilməsi onun idrak qabiliyyətlərinin inkişafı üçün zəruri olan fərdi müstəqilliyinin təzahür formalarından biridir.

Məktəblilərdə nəzarət və özünənəzarət bacarıqlarının formalaşdırılması problemi nə pedaqoji, nə də digər humanitar elmlər üçün yeni deyildir. Uzun müddət həm ölkəmizdə, həm də keçmiş ittifaqa daxil olan respublikalarda pedaqoq və psixoloqlar, metodist və sosioloqlar bu problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmış və

---

[1] Azərbaycan Respublikası təhsil sahəsində islahat proqramı / – Bakı: Pedaqogika, – 2009, s.46

xeyli dəyərli, müasir dövrümüz üçün də əhəmiyyətli fikirlər söyləmişlər. Respublikamızda N.M. Kazımov, İ.İ. Əliyev, A.N. Abbasov, F.A. Rüstəmov, L.N. Qasımova, F.B. Sadıqov, P.B. Əliyev, R.İ. Əliyev, H.Ə. Əlizadə, H.H. Əhmədov, M.İ. İlyasov, E.Ə. Mollayeva, R.L. Hüseynzadə və başqaları, rus pedaqoji mətbuatında isə İ.T. Qavakova, A.V. Zaxarova, M.V. Zvereva, V.S. İvanova, A.İ. Lipkina, K.N. Malseva, İ.N. Merkelina, A.K. Markova, A.E. Mişveladze, L.K. Nazarova, N.A. Romanova, A.K. Serdyuk, Q.A. Sobiyeva öz əsərlərində özünün və təmasda olduğu tərəfdaşlarının təlim fəaliyyətlərinə nəzarətetmə kimi dəyərli keyfiyyətlərindən danışarkən erkən yaş dövründən başlayaraq məktəblilərdə həmin keyfiyyətlərin formalaşdırılmasında pedaqogika nəzəriyyəsinin imkan və yollarının müəyyənləşdirilməsi ilə əlaqədar xeyli yeni, çox dəyərli elmi fikirlər söyləmişlər. Lakin kiçikyaşlı məktəblilərdə həm öz, həm də yoldaşlarının təlim fəaliyyətlərinə nəzarətetmə bacarıqlarının formalaşdırılması məsələsi adları çəkilən pedaqoqların bilavasitə tədqiqat obyekti olmadığından problemin ayrı-ayrı tərəflərinə lazımi səviyyədə münasibət bildirilməmişdir. Ümumiyyətlə, pedaqoji ədəbiyyatda ayrı-ayrı metodik səpgili yazılar istisna olmaqla, son vaxtlara qədər şagirdlərin təlim fəaliyyətində nəzarət və özünənəzarətin funksiyaları dəqiqləşdirilməmiş, onların bütöv təlim prosesindəki yeri və rolu müəyyənləşdirilməmişdir.

Kiçikyaşlı məktəblilərdə nəzarət və özünənəzarətin inkişafı müasir məktəblərimizin ən vacib təlim və tərbiyə vəzifəsidir. Bu bacarıqlar yalnız şagirdlərin təlim və idraki fəaliyyətinin güclənməsinə deyil, həm də onların ümumi inkişafı ilə bağlı vəzifələrin uğurlu icrasına töhfə verir. Buna baxmayaraq, hələ də məktəb praktikasında nəzarət və özünənəzarət qabiliyyətlərinin kiçikyaşlı məktəblilər tərəfindən mükəmməl mənimsənilməsinə və onların tətbiqi bacarıqlarının formalaşdırılmasına xüsusi fikir verilmir. Səbəbi isə ondan ibarətdir ki, bu bacarıqların ibtidai sinif şagirdlərinə mənimsədilməsinin imkanları, yol və vasitələri xüsusi tədqiqat obyekti kimi götürülməmiş və pedaqoji prizmadan araşdırılmamışdır. Ona görə də təlim prosesində kiçikyaşlı məktəblilərə nəzarət və özünənəzarət bacarıqlarının aşılanması probleminin xüsusi tədqiqinə ehtiyac var.

Beləliklə, kiçikyaşlı məktəblilərdə təlim fəaliyyətinə nəzarət və özünənəzarət bacarıqlarının formalaşdırılmasının zəruriliyi tədqiqatımızın aktuallığını söyləməyə və dissertasiya mövzusunu "Kiçikyaşlı məktəblilərin təlim fəaliyyətində nəzarət və özünənəzarət bacarıqlarının formalaşdırılması yolları" kimi müəyyənləşdirməyə imkan verdi.

**Tədqiqatın obyekti** kiçikyaşlı məktəblilərdə elmi bilik və bacarıqların formalaşdırılması prosesidir.

**Tədqiqatın predmeti** – kiçikyaşlı məktəblilərdə nəzarət və özünənəzarət bacarıqlarının formalaşdırılması yollarıdır.

**Tədqiqatın məqsədi** – kiçikyaşlı məktəblilərin təlim fəaliyyəti zamanı nəzarət və özünənəzarətin formalaşması üzrə işin sistemini yaratmaq imkanlarını, optimal yol və vasitələrini müəyyənləşdirməkdir.

Tədqiqatın qarşısında aşağıdakı **vəzifələr** dayanmışdır:

1. Kiçikyaşlı məktəblilərin təlim fəaliyyətində nəzarət və özünənəzarətin funksiyalarının dəqiqləşdirilməsi;

2. Kiçikyaşlı məktəblilərin təlim fəaliyyətində nəzarət və özünənəzarətin pedaqoji və psixoloji xüsusiyyətlərinin müəyyən edilməsi;

3. Məzmunlu qiymətləndirmələr əsasında eksperimental təlim prosesində nəzarət və özünənəzarətin imkanlarının öyrənilməsi;

4. Kiçikyaşlı məktəblilərdə nəzarət və özünənəzarət bacarıqlarının formalaşması və inkişafı üçün tapşırıqlar sisteminin və bu tapşırıqlarla işləmə metodikasının hazırlanması.

5. Kiçikyaşlı məktəblilərin təlim fəaliyyəti prosesində nəzarət və özünənəzarətin formalaşdırılması üzrə eksperimental işin təşkili, aparılması və nəticələrin təhlili.

Araşdırmalar zamanı aşağıdakı tədqiqat **metodlardan** istifadə edilmişdir: mövcud ədəbiyyatın təhlili, müsahibə, müşahidə, sorğu, anketləşdirmə, pedaqoji eksperiment.

**Müdafiəyə aşağıdakı əsas müddəalar** çıxarılır:

1. Kiçikyaşlı məktəblilərin təlim fəaliyyəti zamanı nəzarət və özünənəzarətin formalaşması üzrə işin sisteminin, onun imkanlarının, optimal yol və vasitələrinin müəyyənləşdirilməsi Azərbaycan təhsil sisteminin dünyanın qabaqcıl təhsil sisteminə inteqrasiyasına imkan verir.

2. Kollektiv və fərdi yanaşmanın sintezinə əsaslanan təlim işi ibtidai sinif şagirdlərində nəzarət və özünənəzarət bacarıqlarının formalaşdırılmasında səmərəli vasitədir.

3. Kiçikyaşlı məktəblilərdə nəzarət və özünənəzarət bacarıqlarının formalaşdırılmasında xüsusi və məqsədyönlü təşkil olunmuş təlim fəaliyyəti geniş pedaqoji, psixoloji və fizioloji imkanlara malikdir.

4. Nəzarət və özünənəzarət bacarıqlarının formalaşdırılması ibtidai siniflərdə təlim prosesinin səmərəliliyini artırmaqla yanaşı, onun real həyatla əlaqələndilməsini də təmin edə bilir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir: pedaqoji elmdə kifayət qədər öyrənilməmiş problemin həlli – kiçikyaşlı məktəblilərdə nəzarət və özünənəzarətin formalaşmasının didaktik əsasının və metodikasının müəyyənləşdirilməsi mümkün olmuşdur. Təlim fəaliyyətində nəzarət və özünənəzarətin funksiyası dəqiqləşdirilmiş, təlim prosesinə istiqamətlənmiş nəzarət və özünənəzarətin formalaşmasının xüsusiyyətləri, kollektiv və fərdi iş zamanı nəzarət və özünənəzarətin formalaşdırılmasının səmərəli yolları və vasitələri müəyyənləşdirilmişdir. Bu bacarıqların formalaşması üçün xüsusi tapşırıqlar sistemi, həmin tapşırıqların təsnifatı və onlardan istifadə metodikası hazırlanmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, kiçikyaşlı məktəblilərin təlim fəaliyyəti zamanı nəzarət və özünənəzarətin formalaşması üzrə işin sisteminin, əlverişli yollarının və vasitələrinin müəyyənləşdirilməsi pedaqogika elmini yeni ideyalarla zənginləşdirəcəkdir.

**Tədqiqatın praktik əhəmiyyəti** aşağıdakılardan ibarətdir: Tədqiqatın elmi nəticələrindən ibtidai sinif müəllimləri kiçikyaşlı məktəblilərdə nəzarət və özünənəzarət bacarıqlarının formalaşdırılması məqsədilə; uşaqlar isə, ev tapşırıqlarını yerinə yetirərkən faydalana bilərlər. Tövsiyə etdiyimiz tapşırıqlar şagirdlərə təkcə həmin bacarıqların inkişafında deyil, eyni zamanda bu inkişaf əsasında təlim və idraki fəaliyyətin aktivliyinə və təlim işlərinin yüksək səviyyədə aparılmasına öz köməyini göstərəcəkdir.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqatın məzmunu, əsas elmi ideyaları və nəticələri müəllifin çap etdirdiyi 9 jurnal

məqaləsində (o cümlədən 1-i xaricdə), 5 konfrans materialında (o cümlədən 3 konftans materialı xaricdə) öz ifadəsini tapmışdır.

Tədqiqat Gəncə şəhəri 8 və 28 nömrəli tam orta məktəblərin bazasında aparıldığından alınan nəticələr ilk növbədə həmin məktəblərin təlim işində tətbiq edilmişdir.

Dissertasiya işi Gəncə Dövlət Universitetinin Ümumi pedaqogika kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyada giriş – 11970 işarə; I fəsil – 66382 işarə; II fəsil – 126757 işarə; Nəticə – 10452 işarə. Cəmi – 215561 işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Disseratsiyanın *"Giriş"* hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyektinə, predmetinə, məqsəd və vəzifələrinə, elmi yeniliyinə, praktik və nəzəri əsaslarına aydınlıq gətirilir, müdafiəyə çıxarılan müddəalar göstərilir.

**Dissertasiyanın "Kiçikyaşlı məktəblilərin təlim fəaliyyəti prosesində nəzarət və özünənəzarətin təşkilinin nəzəri məsələləri"** adlanan birinci fəsli 2 paraqrafdan ibarətdir. Fəslin ***"Pedaqoji və psixoloji tədqiqatlarda "nəzarət" və "özünənəzarət" anlayışlarının mahiyyəti və quruluşu"*** adlanan birinci paraqrafında "*nəzarət*" və "*özünənəzarət*" anlayışlarının mahiyyəti aydınlaşdırılır və müxtəlif mənbələrə əsaslanmaqla yenidən şərh olunur. Nəzarət və özününəzarətin pedaqoji və psixoloji mahiyyətinin, şagirdlərin təlim fəaliyyətində onların əhəmiyyətinin və yerinin öyrənilməsinə N.M. Kazımovun, Ə.Ə. Əlizadənin, L.N. Qasımovanın, İ.T. Qavakovanın, A.V. Zaxarovanın, M.V. Zverevanın, V.S. İvanovanın, A.İ. Lipkinanın, K.N. Malsevanın, İ.N. Merkelinanın, A.K. Markovanın, A.E. Mişveladzenin, L.K. Nazarovanın, N.A. Romanovanın, A.K. Serdyukun, Q.A. Sobiyevanın və başqalarının işləri mühüm töhfə vermişdir.

Mütəxəssislər, təlim prosesində nəzarət və özünənəzarətin funksiyasını fərqli cəhətlərdən nəzərdən keçirirlər. Onların bir qismi (Ə.Ə. Əlizadə, A.İ. Lipkina, Q.A. Sobiyeva və b.) bu məfhuma geniş mənada – şəxsiyyətin ümumi əlaməti kimi yanaşırlar, digərləri isə (T.İ. Qavakova, B.P. Yesipov, N.A. Mençinskaya və b.) özünənəzarəti

insanda idrak fəaliyyətinin aktı, düşüncə tərzi üçün xarakterik olan tənqidi əlamət hesab edirlər; bəzi tədqiqatlarda isə (L.N. Qasımova, V.S. İvanova, K.P. Malçeva, A.K. Markova, N.A. Romanova və b.) göstərilir ki, özünənəzarət təlim prosesində şagird fəaliyyətinin əsas və aparıcı komponentlərindən biri olmaqla bərabər, şagirdin müstəqil fəaliyyəti ilə onun yekun nəticəsini uzlaşdıran və nizamlayan ayrılmaz tərkib hissəsidir.

Geniş mənada özünənəzarət dedikdə, insanın öz davranışlarına, fəaliyyətlərinə tənqidi yanaşması və öz hərəkətlərini tənzimləmək qabiliyyəti nəzərdə tutulur. Təlim fəaliyyəti zamanı özünüyoxlamaq öz fəaliyyətinə nəzarət etmənin təzahürlərindən biri hesab edilir. N.M. Kazımovun və Q.A. Sobiyevanın fikrincə, özünənəzarət təlim prosesində mühüm rol oynayır. Təlim fəaliyyətində özünüyoxlamaq şagirdi təlim tapşırıqlarının dəqiq yerinə yetirilməsinə sövq edir, səhvləri aradan qaldırır, məzmunu daha yaxşı anlamağa kömək göstərir, kiçikyaşlı məktəblilərə öz fikirlərini ifadə etməyi, araşdırılan obyektlərin müqayisəsini aparmağı, qiymətləndirməyi, düşüncənin müstəqilliyini göstərməyi öyrədir. N.M. Kazımov şagirdlərin təlim fəaliyyətində nəzarət və özünənəzarətə böyük əhəmiyyət verərək vurğulayırdı ki, "*şagirddə özünənəzarət bacarıqları onlarla xüsusi iş aparılmayana qədər inkişaf etməyəcəkdir*"[2].

Ə.Ə. Əlizadə, R.İ. Əliyev, T.İ. Qavakova məsələyə başqa cür yanaşır və belə hesab edirlər ki, özünənəzarət - idrak fəaliyyətinin əsas göstəricisi olmaqla yanaşı, o, sintezdə psixoloji fəaliyyətin idraki və emosional-iradi sahəsini əhatə edir və özünüdərk, özünütənqid və s. kimi şüurun təzahürləri ilə sıx əlaqədədir.

A.N. Abbasovun, L.N. Qasımovanın, A.K. Markovanın tədqiqatlarında nəzarət və özünənəzarət təlim fəaliyyətinin tərkib hissəsi kimi, ayrılmaz komponenti kimi qəbul edilir. Onların fikrincə, nəzarət və özünənəzarətin təşəkkülü şagirdin müstəqil düşüncəsinin formalaşmasında böyük əhəmiyyətə malikdir. Özünənəzarətin təşəkkülünün müstəsna vacibliyi, uşağın bir fəaliyyət subyekti kimi formalaşması ilə əlaqəli olmasıdır: "*Geniş mənada özünənəzarət priyomu məfhumu altında şagirdlərin elə meyarları seçmək*

---

[2] Kazımov, N.M. Seçilmiş əsərləri. 8-ci cild. // N.M.Kazımov. – Bakı: OKA Ofset, – 2012., s.71

*qabiliyyəti başa düşülməlidir ki, onların köməyi ilə gələcəkdə müstəqil iş təşkil etmək və onun üzərində özünənəzarəti tətbiq etmək mümkün olsun*"[3].

F.A. Rüstəmov, E.Ə. Mollayeva, A.S. Lında isə belə hesab edirlər ki, şagirdlərin təlim fəaliyyətində özünənəzarət bacarıqları olmadan şagirdlərdə sərbəst işləmə vərdişlərinin inkişafına nail olmaq, onları öyrənmə prosesinə fəal cəlb etmək qeyri-mümkündür. Məktəblilərə özünənəzarət xüsusi olaraq öyrədilməlidir.

Deməli, nəzarət elə bir prosesdir ki, konkret etalon, standart əsasında məktəblinin təlim fəaliyyətini özü idarə edə bilir. Şagird nəzarət vasitəsi ilə təlim fəaliyyətinin necə getdiyini və nə ilə nəticələndiyini (əvvəlcədən işlənib hazırlanmış qayda və ya standarta nə dərəcədə uyğun olduğunu) müəyyən edir. Əgər nəticə həmin qayda və ya standarta uyğundursa, onda nəzarəti başa çatmış hesab etmək mümkündür. Bundan sonra alınan nəticə hazırlanmış qayda və ya standartla müqayisə edilir və onun natamam, qaneedici, yaxşı və ya yüksək səviyyədə olub-olmadığına qiymət verilir.

Beləliklə, nəzarət ilə özünənəzarətin vəzifələri arasındakı müəyyən fərq vardır. Nəzarətin vəzifəsi müəyyən bir motivasiya (kömək, təcrübə mübadiləsi, həvəsləndirmə, qınaq və s.) əsasında etalona nisbətən başqasının fəaliyyətini və ya fəaliyyətin nəticəsini müəyyən etməkdir. Özünənəzarətin vəzifəsi isə, müəyyən bir motivasiya (səhvlərdən qurtulmaq, tapşırığın keyfiyyətli icrası və s.) əsasında öz fəaliyyətinin və ya onun nəticəsinin etalona uygun olub-olmamasını müəyyən etməkdir.

Fəslin ***"Təlim prosesində kicikyaşlı məktəblilərin nəzarət və özünənəzarətinin xüsusiyyətləri"*** adlanan ikinci paraqrafı ibtidai siniflərdə nəzarət və özünənəzarətin reallaşdırılması üzrə işin pedaqoji və psixofizioloji xüsusiyyətlərinin müəyyənləşdirilməsinə həsr edilmişdir.

Psixoloji tədqiqatlardan görünür ki, ibtidai məktəb yaş dövrü son illərdə diqqəti daha çox cəlb edən və uşağın həyatında xüsusi rol oynayan bir dövr kimi nəzərdən keçirilir. Kiçikyaşlı məktəblilərin psixoloji və fizioloji xüsusiyyətləri tam öyrənilmiş və dəyişilməz

---

[3] Abbasov, A.N. Pedaqogika: Müntəxabat. / A.N.Abbasov, R.R.Məmmədzadə, L.A.Məmmədli – Bakı: Mütərcim, – 2021., s.5

sayıla bilməz, bu yaşın yalnız müəyyən xarakterik xüsusiyyətləri haqqında qəti söz demək mümkündür. Bu yaşda uşaqlara mənimsəməyə can atmaq, həvəs və ətraf mühitə qarşı son dərəcə həssaslıq məxsusdur. 8-10 yaşlı uşaqlar müəllimin ayrı-ayrı fikirlərini cavablandırmağa çalışır, hər hansı bir yeniliyə, zarafata, həyatdan gətirilən nümunəyə çox tez reaksiya verirlər. Özlərini qiymətləndirərkən böyüklərin – müəllimlərin və valideynlərin qiymətləndirməsinə etibar edir, onların dediklərini, fikirlərini təkrarlayır və tənqidsiz qiymətləndirmələrini qəbul edirlər.

Bəzi tədqiqatçıların fikrincə (Ş.T. Tağıyev, Q.A. Sobiyev, M.P. Şesternina, İ.N. Marqolin, B.P. Yesipov, A.K. Serdyuk), kiçikyaşlı məktəblilər artıq I-II siniflərdə özünənəzarət təsəvvürlərinə malik olurlar, lakin onlardan istifadə etmə hələ bacarığa çevrilə bilməmişdir. S.P. Tişenko, K.P. Malsev, N.A. Romanova, K.A.Sotnikova, N.A. Belskaya, L.K. Nazarova, M.İ. Moro qeyd edirlər ki, kiçikyaşlı məktəblilərdə öz təlim fəaliyyətlərinə nəzarət edə bilmək bacarıqları, ümumiyyətlə yoxdur və əgər müəyyən əlamətləri hiss olunsa da, çox zəif inkişaf etmiş olur. Belə yaşda məktəblilərdə müstəqil fəaliyyət göstərə bilmək bacarıqlarının səviyyəsi də aşağıdır.

Təqdim olunan material, mövcud təlim sistemi şəraitində kiçikyaşlı məktəblilərin təlim fəaliyyətini səciyyələndirən səciyyəviliyi göstərir. Bu səciyyəvilik, yəni təlim tapşırıqlarının tənqidi təhlil olunmadan qəbul edilməsi kiçikyaşlı məktəblilərdə nəzarət və özünənəzarətin səviyyəsinin aşağı olduğundan xəbər verir.

Beləliklə, təhlillər bizi aşağıdakı nəticəyə gətirib çıxarır: kiçikyaşlı məktəblilərdə təlim fəaliyyəti bütün komponentlər üzrə tam formalaşdırılmır. Bunun başlıca səbəbi ondan ibarətdir ki, şagirdlər təlim tapşırıqlarının istiqamətverici hissəsini, sualı və ya göstərişi təhlil aparmadan qəbul edirlər; bu və digər məktəbli təlim fəaliyyəti prosesində tapşırıqların istiqamətverici hissəsi ilə faktiki vəziyyət arasındakı uyğunsuzluqla qarşılaşdıqda belə ona tənqidi yanaşmır. İstiqamətverici hissələrə (tapşırığın sualına) olan belə münasibət nəzarət və özünənəzarət bacarıqlarının kifayət qədər inkişaf etməməsindən qaynaqlanır.

Dissertasiyanın **“Nəzarət və özünənəzarəti formalaşdırmağın yolları və vasitələri”** adlandırılan II fəsli dörd paraqrafdan ibarətdir.

Fəslin *"Təlim prosesində istiqamətləndirmə nəzarət və özünənəzarəti formalaşdırmağın əsası kimi"* adlanan birinci paraqrafında müəyyənləşdirilir ki, nəzarət və özünənəzarət bacarıqlarının formalaşdırılmasının mərhələləri üzə çıxarılır və əsaslandırılır. Sübuta yetirilir ki, bu prosesin əsas və ilkin mərhələsi *təlim mühitinin (təlim üçün münbit şəraitin) yaradılmasıdır.* Təlim mühiti, adətən təbii şəkildə, müxtəlif situasiya və tələbatlara uyğun meydana gəlməlidir. Bu mühitin tədris materialı ilə təsadüfi əlaqəsi yalnız emprik biliyə, proqram materialı ilə pianlı şəkildə təşkil olunmuş əlaqəsi isə elmi biliklərə gətirib çıxarır. Təlim mühitinin formalaşdırılmasından sonrakı ikinci mərhələ *obyektivləşdirilmə şəraitinin yaradılmasıdır.* Bu mərhələ öyrənilən tədris materialının məzmununa daxil olan bütün əsas komponentləri özündə birləşdirir. Mərhələnin əsas vəzifəsi şagirdin tədris materialının məzmununu nəzəri cəhətdən öyrənmə obyektinə çevirə bilməsidir. Prosesin üçüncü mərhələsinin məzmununu *əşya və hadisələrin daxili əlaqə və qanunauyğunluqlarının nəzəri mahiyyətinin başa düşülməsi* təşkil edir. Bu zaman nəzəri mülahizələr, abstraksiyalar və müəyyən təsəvvürlər yaranır. Sonda müəyyən qanunauyğunluqlar, ümumiləşdirmələr sistemi formalaşır. Təlim prosesinin növbəti mərhələsi *təlim mühitinin, yaranmış təlim şəraitinin dəyişdirilməsi və yenisi ilə əvəz olunmasıdır.* Təlim prosesinin bu mərhələsində daxili qanunauyğunluqlar və ümumiləşdirmələrin formalaşdırlması əsasında nisbətən təkmilləşmiş təlim mühiti meydana gəlir.

Bu paraqrafda nəzarət və özünənəzarət bacarıqlarının formalaşdırılması məqsədilə tərtib olunmuş tapşırıqların icra alqoritmi də müəyyən edilmiş və eksperimental yolla sınaqdan keçirilmişdir. Tapşırıqların icrası zamanı şagirdlərin yerinə yetirəcəkləri birinci əməliyyat (mərhələ) – *tapşırığın məqsədini başa düşməkdir.* Kiçikyaşlı məktəbli ilk öncə tapşırığı həll etməkdə məqsədin nədən ibarət olduğunu anlamalıdır. Sonrakı əməliyyat *tapşırıq üçün şərtlərin başa düşülməsidir.* Şagird tapşırığın məqsədini aydın görməyi, nəyi axtaracağını və axtarışa hansı şərtlərin kömək göstərə biləcəyini bilməlidir. Üşüncü əməliyyat ona yönəldilir ki, məktəblinin öz *şəxsi qüvvəsini, imkanlarını, öncə qazandığı bilik və təcrübəni qiymətləndirməyi bacarmasıdır.* Fəaliyyətin növbəti dördüncü mərhələsi isə *məsələnin həlli üçün planın hazırlanması,* onun beyində fikrən

(nəzəri planda) həlli və yekun nəticənin təsəvvür olunmasıdır. Əməliyyatı praktik cəhətdən həyata keçirənə qədər şagird onun nəzəri planını və əməliyyatın ardıcıllığını təsəvvür etməlidir. Təlim-icra fəaliyyətinin beşinci mərhələsi – *praktik əməliyyatlar dövrüdür* ki, bu zaman kiçikyaşlı məktəbli tərəfindən əvvəlki mərhələdə fikrən planlaşdırılmış nəzəri planın praktik həyata keçirilməsi baş verir. Altıncı mərhələdə icra olunmuş iş və onun nəticələrinin *yekun qiymətləndirilməsi* hesab edilir. Prosesin necə getdiyi, harada səhvlərə yol verildiyi, onları necə düzəltməyin mümkünlüyü, əldə olunmuş nəticənin tapşırığın tələb və şərtlərinə necə uyğun gəldiyi yoxlanılır. Bu mərhələdə şagird üçün qiymətləndirmə predmetini nəyi öyrəndiyi, nəyə yiyələndiyi təşkil etməlidir. Burada məktəbli öz hərəkətlərini, harada və hansı çətinliklərlə qarşılaşdığını, gələcəkdə nəyə diqqət yetirməli olduğunu və s. təhlil edir. Nəhayət, yeddinci mərhələdə *şagirdlər yol verdikləri səhvləri düzəldərək,* icra etdikləri əməliyyatı tamamilə mükəmməlləşdirirlər.

Növbəti komponent təlim fəaliyyətində fasiləsiz iştirak edən və onun ayrı-ayrı mərhələlərinin dügün həlli üçün böyük rol oynayan – *qiymətləndirmə fəaliyyətidir.* Bu komponent işin dəqiqliyinin müəyyən olunmasını, icrası nəzərdə tutulmuş və ya icra olunmuş işin və onun nəticələrinin əsaslandırılmasını, onun verilən tələblərə uyğunluğunu və s. əməliyyatları nəzərdən keçirir. Qiymətləndirici əməliyyat təlim fəaliyyətinin mühüm komponentidir, onsuz nəinki ayrı-ayrı təlim hərəkətlərini, hətta bütöv təlim prosesini idarə etmək mümkün deyil. Hazırda ibtidai siniflərdə müşahidə olunan şagird təlim fəaliyyətinin birtərəfliliyi onunla bağlıdır ki, onun ümumi strukturunda qiymətləndirmə fəaliyyəti ya zəifdir və yaxud da yox dərəcəsindədir.

Qiymətləndirmə, bizim tərəfimizdən təlim fəaliyyətinin mühüm komponenti və idrak fəallığı kimi başa düşülür, vəzifəsi isə standartlara uyğun əşyaları, nəzərdə tutulan və ya icrası başa çatmış işin gedişini, nəticələrini təhlil etməkdir. Qiymətləndirmək – fəaliyyətin nəticələrini ayırd etmək, başa çatmış fəaliyyətin gedişini bərpa etmək, nəzərdə tutulan işin və onun nəticələrinin istiqamətlərini müəyyənləşdirmək, onları standartlarla: təcrübə, bilik, qayda, qanun, sxem, nümunə, ideallarla əlaqələndirməkdir. Qiymətləndirmə fəaliyyəti nəticəsində

şəxsiyyət yeni təcrübə qazanaraq, məqsədə nail olmaq üsulunu təkmilləşdirir, səhvləri görür və ya onları vaxtında aradan qaldırır.

II fəslin "***Kollektiv iş prosesində nəzarət və özünənəzarətin formalaşmasının yolları və vasitələri***" adlanan ikinci paraqrafında uşaqlarla kollektiv işlərin təşkili zamanı təlim fəaliyyətlərinə nəzarət və özünənəzarətin reallaşdırılması imkanları, yol və vasitələrinin müəyyənləşdirilməsi diqqət mərkəzinə gətirilir. Göstərilir ki, kollektiv iş elə bir təlim prosesi hesab edilməlidir ki, şagird sinif yoldaşları ilə əməkdaşlıqda nəzəri və praktik fəaliyyətlər zamanı kollektivlik etalonunun yaradılmasında iştirak etsin və onu mənimsəsin. Əksər şəxsi keyfiyyətlərin də inkişafı kollektiv işdən başlayır. Yalnız kollektiv işlə, kollektiv fəaliyyətlə reallaşa bilən birgə fəaliyyət və əməkdaşlıq olmasaydı, insanın bir çox keyfiyyətləri lazımınca inkişaf etməzdi. K.D. Uşinskinin qənaətincə, "psixoloji qanuna görə, təklikdə mənimsənilməsi xeyli çətin olan faktları və düşüncələri birlikdə mənimsəmək daha asandır". Eksperimental tədqiqatlarda isə belə qənaətə gəlinmişdir ki, "*başqa şəxsin iştirakı ilə öyrənmə prosesində artıq öyrənilmiş, möhkəm sabitlənmiş hərəkətlərin icrası daha məhsuldar olur*"[4].

Əməkdaşlıq formasında təşkil edilən təlim prosesində başqa şəxsin fəaliyyətinin müsbət təsir faktları Q. Qyurnun eksperimental tədqiqatlarında da göstərilmişdir. Onun fikrincə, qrup halında işləyən subyektlər bir-birinə müvafiq təsir edirlər. Düzgün cavabı müəyyən edərkən subyekt başqasının düzgün cavabını əsas götürür. Bu da cavabın düzgün müəyyən olunmasına imkan verir. Subyekt zəruri bilik ehtiyatına malik olduqda daha cəld cavab verir. Onun bu cavabı digərlərinin cavablarına da öz təsirini göstərir. Lakin cavabının düzgün olub-olmadığına o qədər də inanmayan, şübhəli qalan subyektlər isə cavab verməkdə ləngiyirlər. Bu da qrupun yekun cavabına o qədər də müsbət təsir göstərə bilmir. "Bir çox eksperimental işlərlə təsdiq edilmişdir ki, hər hansı bir hərəkətin kollektiv öyrənilməsi prosesində, hər bir fərd ayrı-ayrılıqda deyil, digərinin bilgisini nəzərə alınmaqla öyrəndikdə təlim daha məhsuldar həyata keçirilir".

Psixoloji tədqiqatların göstərdiyi və təcrübənin təsdiq etdiyi kimi, kollektiv iş bir çox müsbət cəhətlərə malikdir – yalnız

---

[4] Федоренко, И.Т. Формирование навыков самоконтроля в учении // «Народное образование», № 6, – 2012, s.17

kollektivdə fərd öz güclü tərəflərini hərtərəfli inkişaf etdirə bilər. Kollektiv əmək şagirdlərdə bir sıra müsbət xüsusiyyətləri formalaşdırır: əməkdaşlıq, qarşılıqlı yardım, qarşılıqlı hörmət, əməyə sevgi və s., onlarda diqqət, yaddaş, müşahidə, təşkilatçılıq, tənqid və özünütənqid, təhlil və ümumiləşdirmə, nəzarət və özünə nəzarət bacarıqlarını inkişaf etdirir.

Göstərildiyi kimi, kollektiv iş prosesində şagirdlərdə müxtəlif bacarıqların formalaşması və inkişafı ilə yanaşı, nəzarət və özünənəzarət qabiliyyəti də təşəkkül tapır. Kollektiv iş qarşılıqlı yardım və əməkdaşlığı nəzərdə tutur ki, bu da öz növbəsində qarşılıqlı nəzarətə əsaslanır. Qarşılıqlı nəzarət kollektiv işin xüsusiyyətlərindən biridir, onsuz bu işin uğurlu təşkili prosesini təsəvvür etmək çətindir. Bir-birinin təlim hərəkətlərinə, təlim addımlarına nəzarət edərək, şagirdlər onları öz hərəkətləri və ya fəaliyyət planı ilə müqayisə edir, nəticələrin düzgünlüyünü yoxlayırlar. Yoldaşının yerinə yetirdiyi hərəkətə nəzarəti həyata keçirmək, kiçikyaşlı məktəblidə özünə nəzarət, özünü idarə etmək və öz işinin müsbət və mənfi tərəflərini müəyyənləşdirmək imkanı verir.

Beləliklə, qarşılıqlı nəzarət, əsasən, kollektiv iş prosesində mümkün olduğundan və eyni zamanda, qarşılıqlı nəzarət özünənəzarətin inkişafının əsasını təşkil etdiyindən, o zaman, sübhəsiz ki, kollektiv iş bu bacarıqların formalaşdığı təlim prosesinin ən mühüm təşkili forması kimi diqqət mərkəzinə gəlir.

Kiçikyaşlı məktəblilərdə nəzarətin və özünənəzarətin formalaşdırılması yollarından biri də bu məqsədlə eksperimental təlim prosesində geniş istifadə olunan xüsusi hazırlanmış tapşırıqlar üzərində işdir. Tədqiqatdan görünür ki, xüsusi təşkil edilmiş tapşırıqların tətbiqi və onların dərsdə sistemli istifadəsi nəzarətin və özünənəzarətin formalaşdırılması istiqamətində arzu olunan nəticəni verir.

Nəzarət və özünənəzarətin inkişafı üçün xüsusi təşkil edilən tapşırıqların bir hissəsi şagirdlərdə onların inkişafına kömək göstərən xüsusiyyətləri: müşahidə, diqqəti cəmləşdirmə, iradə, fərasət və s. intensifikasiya yolu ilə göstərilən bacarıqları formalaşdırmaq məqsədi daşıyır. Bu tip tapşırıqların istifadəsi daha çox bacarıqların formalaşmasının ilkin mərhələsində – hazırlıq və birinci sinifdə baş

verir. Xüsusi təşkil edilmiş tapşırıqların digər bir hissəsi artıq əldə edilmiş bilik və bacarıqların təkmilləşdirilməsi zamanı nəzarət və özünənəzarətin inkişafını, yəni şagirdlərin təlim fəaliyyətində buraxdıqları səhvlərin düzəldilməsini və gələcəkdə gözlənilən səhvlərin qarşısının alınmasını nəzərdə tutur.

Bu paraqrafda hazırlıq və ibtidai sinif şadirdlər üçün nəzərdə tutulmuş, bizim tərəfimizdən tərtib edilmiş və birbaşa nəzarət və özünənəzarətin formalaşmasına yönəlmiş tapşırıq nümunələri də verilir. Məsələn, lövhədə müxtəlif ölçülü üçbucaqlardan ibarət yolka ağacı çəkilib.



şəkil

Kiçikyaşlı məktəblilərə lövhədə çəkilmiş yolkanın neçə üçbucaqdan ibarət olduğunu saymaq tapşırılır. Burada şagirdlərin əksəriyyəti beş üçbucağı, bəziləri isə səkkizinin hamısını görə bilir. Sonra onlara deyilir: “Yolka ağacına daha bir üçbucaq əlavə edəcəyik (rəsmdə bu üçbucaq qırıq xətlərlə göstərilib). Yolka ağacına neçə üçbucaq əlavə olunacaq? Şagird bildirir ki, yolka ağacına bir üçbucaq əlavə etməklə iki üçbucaq əlavə olunur.

Belə tapşırıqlar üzərində işləmək yalnız müəyyən bilik və bacarıqların inkişafını təmin etmir, həm də bir sıra tərbiyəvi məqsədləri diqqət mərkəzinə gətirir. Şagirdlər tarşırığı tam və düzgün icra edən yoldaşlarının uğuruna sevinməli və onu səmimi şəkildə alqışlamalıdırlar. Müəllim bu yolla şagirdlərin duyğu və hisslərini düzgün istiqamətə yönəldir və təlimin ilk günlərindən başlayaraq onlarda qarşılıqlı hörmət və məhəbbət, yoldaşlarına qarşı xeyirxahlıq və həssaslıq aşılayır.

Tapşırıqlar nəzarət və özünənəzarət bacarıqlarının formalaşmasına xidmət göstərməklə yanaşı, öz səciyyəviliyinə görə şəxsiyyətə mənsub müxtəlif xüsusiyyətlərin (diqqətlilik, müşahidəçilik, iradəlilik və digər keyfiyyətlərin) də inkişafına kömək edir. Tapşırıqlar üzərində işləmək metodikasının özü şagirdlərdə nəzarət və özünənəzarətin inkişafı üçün zəruri sayılan digər xüsusiyyətləri inkişaf etdirməyə imkan yaradır. Bəzi tapşırıqların icrası zamanı müəllim qəsdən ziddiyyətli fikirlər söyləyir ki, kiçikyaşlı məktəblilərdə şübhə oyatsın və onların aralarında mübahisələr meydana gəlsin. Bu zaman bəzi şagirdlər müəllimə, bəziləri isə yoldaşına dəstək olur. Uşaqlar arasında yaranan belə fikir ayrılığı nəticəsində onların dünyagörüşləri, təsəvvür və təfəkkürləri cilalanır, zənginləşir, mühakimələri düzgün və dolğun şəkil alır, düzgün istiqamətdə formalaşır. Sonda kollektivin birgə əməyinin məhsulu, fəaliyyəti dəyərləndirmək üçün etalonlar əmələ gəlir, elmi şəkil alır. Bu keyfiyyətlər tədricən, hər bir kiçikyaşlı məktəblinin şəxsi tapıntısına, şəxsi nailiyyətinə, xüsusi mülkiyyətinə, elmi sərvətinə çevrilir.

Kollektiv işi başqa variantla da təşkil etmək mümkündür. Bu zaman şagird öz işini özü oxuyur və onu tənqidi şəkildə müzakirə edir. Məktəbli yerinə yetirdiyi işin müsbət və mənfi tərəflərini görür. O, həmçinin qeyd edir ki, işin bu və ya digər hissəsini daha yaxşı yerinə yetirə bilərdi, lakin diqqətsizlik və ya tələskənlik ucbatından, yaxud tədris materialının bu və ya digər hissəsini zəif bildiyindən daha yaxşı tədris işini apara bilmədi. Şagirdlər yoldaşlarının fikirlərini dinləyir, onun mülahizələri ilə razılaşır və ya razılaşmırlar, müvafiq şərhlər verirlər.

Eksperimental siniflərdəki iş təcrübəsi göstərdi ki, işin bu cür istiqaməti çox səmərəlidir və istənilən uğurlu nəticəni verir. Şagirdlərlə aparılan belə kollektiv iş onlarda müxtəlif bacarıqların - əməkdaşlıq, qarşılıqlı yardım, qarşılıqlı yoxlama, başqasının fikrinə hörmət və s. kimi keyfiyyətlərin inkişafına təkan verir, nəzarət və özünənəzarətin inkişafı üçün isə, xüsusilə vacibdir.

II fəslin ***"Fərdi iş prosesində nəzarət və özünənəzarətin formalaşdırılması yolları və vasitələri"*** adlanan üçüncü paraqrafında müəyyən edilir ki, təlim prosesində, kiçikyaşlı məktəblilərlə aparılan fərdi işin xüsusiyyətlərindən irəli gələn nəzarət bacarığı da

özünəməxsus şəkildə formalaşır. Güclü və zəif oxuyan şagirdlərin tapşırıqları bir-birindən fərqlənməlidir. Eyni tədris materialı tətbiq olunan şəraitdə zəif oxuyan məktəbli elə tapşırıq almalıdır ki, o, təlim materialını, onun həlli qaydalarını mənimsəyib, səhvlərə yol verməsin. Yaxşı oxuyan şagirdlər üçün tapşırıqlar isə biliklərin zənginləşməsinə və daha da təkmilləşməsinə xidmət göstərməlidir. "Nisbətən yaxşı oxuyan şagirdlərə verilən tapşırıq onu irəli aparmasa da, onun biliklərini zənginləşdirib, keyfiyyətini yaxşılaşdırması üçün" vacibdir.

Şagirdlərlə fərdi iş üçün hazırlanmış çalışmalar həm nəzarət və özünənəzarəti inkişaf etdirməli, və həm də müxtəlif didaktik xarakter daşımalıdır. Məktəblilərlə fərdi iş zamanı istifadə olunan çalışmaları biz üç növə bölürük:

1. Nəzarət və özünənəzarətin inkişafına bilavasitə xidmət edən çalışmalar;
2. İdrak fəallığının inkişafı məqsədilə nəzarət və özünənəzarətin daha da təkmilləşdirilməsinə yönəldilmiş tapşırıq və çalışmalar;
3. Ev tapşırıqlarının icrası zamanı nəzarət və özünənəzarətin inkişafına imkan verən çalışmalar.

Kiçik məktəbyaşlı uşaqlarda nəzarət və özünənəzarəti formalaşdırmağının psixoloji xüsusiyyətlərini nəzərə aldıqdan sonra belə bir yekun nəticəyə gəlmək mümkündür ki, şagirdlər nə vaxt özünənəzarətin tətbiqinin vacibliyini düzgün başa düşürsə, bu zaman səmərəlilik şagirdin ona məcburi üz tutduğu hala nisbətən daha yüksək olur.

Ev tapşırıqlarını yerinə yetirərkən nəzarət və özünənəzarətin inkişafı üçün fərdi xüsusiyyətləri və sinifdə kollektiv və fərdi işdə buraxdıqları səhvləri nəzərə alaraq bu bacarıqları təkmilləşdirmək üçün şagirdlərə verilən xüsusi tapşırıqlar böyük əhəmiyyət daşıyır. Paraqrafda bu tapşırıqlardan və onlar üçün olan yazılı və şifahi təlimatı göstərişlərdən nümunələr verilir.

Şagird müxtəlif məzmunlu ev tapşırıqlarını yerinə yetirərkən müəllim ona zəruri yazılı göstərişlər, tövsiyələr, izahatlar verməklə, ona bilik, bacarıq və vərdişlərinin daha da möhkəmlənməsinə və dərinləşməsinə, bununla da onun təkmilləşməsinə böyük kömək göstərir.

Fəslin ***"Kiçikyaşlı məktəblilərin təlim fəaliyyətində nəzarət və özünənəzarətin formalaşdırılması üzrə aparılan eksperimetin***

*nəticələri"* adlanan sonuncu – dördüncü paraqrafında alınan nəticələrin və kiçikyaşlı məktəblilərin təlim fəaliyyətində nəzarət və özünənəzarət bacarıqlarının formalaşdırılması yollarının səmərəliliyi Gəncə şəhərinin (8 və 28 №-li) məktəblərində, Göy-göl və Daşkəsən rayonlarının kənd məktəblərində keçirilən pedaqoji eksperimentdə yoxlanılmışdır. Eksperimental sinif kimi, Gəncə şəhəri 8 №-li tam orta məktəbin 3-"C; 28 №-li tam orta məktəbin 3-"A" sinifləri; nəzarət sinif kimi Gəncə şəhəri 8 №-li tam orta məktəbin 3-"B"; 28 №-li tam orta məktəbin 3-"C" sinifləri götürülmüşdür.

Eksperimet iki mərhələdə aparılmışdır.

Birinci mərhələdə eksperimentin məqsədi ibtidai sinif şagirdləri tərəfindən müxtəlif motivasiya məzmunlu tədris tapşırıqlarının yerinə yetirilməsinə nəzarətin səviyyəsini müəyyən etmək idi.

II mərhələdə eksperimentin məqsədi – təlim fəaliyyətinin həyata keçirilməsi və onların nəticələrinin qiymətləndirilməsi prosesində kiçikyaşlı məktəblilərdə özünü idarəetmə qabiliyyətinin xüsusiyyətlərini aşkara çıxarmaqdan ibarət idi.

İkinci mərhələdə, yəni şagirdlər öz işlərində səhvləri aşkar etdikdən sonra onlara layiq olduqlarını, düşündükləri qiyməti özlərinə vermələrini və bunu əsaslandırmalarını tapşırdıq. Bunun üçün onlar aşağıdakı suallara yazılı cavab verməli idilər:

1. Müəllimin qiymətləndirməsi ilə razısınızmı? Niyə?

2. Özünüzə hansı qiyməti verərdiniz?

Eksperimental sinif şagirdlərinin göstəricilərini nəzarət siniflərindəki şagirdlərin uyğun göstəriciləri ilə müqayisə etdikdə, aşağıdakı qanunauyğunluğu müşahidə etdik: Eksperimetin birinci mərhələsinin birinci təcrübəsində (Cədvəl 2.4.1.-ə baxın) eksperimental sinif şagirdlərinin 81%-i səhvləri göstərdilər (tapdılar), bu isə nəzarət siniflərindəki səhvləri tapan şagirdlərdən 21% çoxdur. Eyni mərhələnin ikinci təcrübəsində, 5 səhvə diqqət yetirməli olduqlarına baxmayaraq, eksperimental sinif şagirdləri yenidən səhvlərin 83,4% –nı tapdılar, (nəzarət siniflərindəkinə nisbətən, 32,0% çox) və III təcrübədə səhvlərin 93%-ni (20% çox) tapdılar.

**Cədvəl № 2.4.1.**

**Birinci mərhələdə eksperimentin nəticələri**

| Sinif, şagirdlərin sayı | n | 1 təcrübə | | 2 təcrübə | | 3 təcrübə | |
|---|---|---|---|---|---|---|---|
| | | $\gamma$ | $\mu$ | $\gamma$ | $\mu$ | $\gamma$ | $\mu$ |
| III – 87 şag. eksperimen. | 870 | 705 (81%) (1 şagir - 8) | 1 | 726 (83,4%) (1 şagir - 8,3) | 1,4 | 809 (93%) (1 şagir - 9,3) | 4 |
| III – 83 şag. nəzarət | 830 | 498 (60%) (1şagir - 6) | 2,2 | 427 (51,4 %) (1 şagir - 5,1) | 2,8 | 606 (73%) (1 şagir -7,3) | 6,7 |

n – mətndəki ümumi səhvlərin sayı

$\gamma$ – tapılmış səhvlərin sayı

$\mu$ – səhv kimi qəbul ediblər (orta hesabla 1 şagird)

Bu yoxlama kiçikyaşlı məktəblilərdə nəzarətin özəlliyi ilə də diqqət mərkəzinə gəldi. Belə ki, səhvləri axtararkən düzləri də səhv kimi qəbuletmə hallarına təsadüf olunurdu. Bu xüsusiyyət həm eksperimental, həm də nəzarət siniflərində özünü göstərdi. Lakin onların arasında fərq ondan ibarət oldu ki, nəzarət siniflərində şagirdlərin daha çox hissəsi belə səhvlərə yol verdilər.

Eksperimentin birinci mərhələsinin III təcrübəsində bu fərq daha aydın şəkildə özünü göstərir: belə ki, 15 səhvin axtarışında nəzarət sinfinin şagirdləri səhvlərin yalnız orta hesabla 7,3-nü düzgün və 6,7 halı səhv kimi, eksperimental siniflərdə isə səhvlərin orta hesabla 9,5-ni düzgün tapdılar və 4 halı isə səhv kimi qəbul etdilər.

Eksperimentin birinci mərhələsinin nəticələrindən görünür ki, eksperimental siniflərin şagirdləri nəzarət siniflərinin şagirdləri ilə müqayisədə təlim fəaliyyətinə daha mükəmməl yiyələnə bilirlər. Burada yalnız müəllimin tapşırıqların icrası üçün verdiyi təlimatı göstərişlər deyil, eyni zamanda kiçikyaşlı məktəblilərin özlərinə verdikləri tənqidi qiymətləndirmə əsas istiqamətverici rol oynayır. Bunun da əsasında daha yüksək səviyyəli nəzarət yaranır və məsələ daha uğurla həll olunur.

Şagirdlərin təlim fəaliyyətləri zamanı nəzarət və özünənəzarətin əlamətlərindən (komponentlərindən) birini səciyyələndirən təlimatı məlumatlar (göstərişlər, verilən istiqamətlər) daha çox diqqət mərkəzinə gəlir. Həmin məlumatların əsas məqsədi fəaliyyət prosesində kiçikyaşlı məktəblilərin əsas diqqətini öz əməli fəaliyyətləri üzərinə cəmləşdirməkdir, yəni şagirdlər öz yazı işlərinə daha diqqətli yanaşmalı, buraxılmış səhvləri tapmalıdırlar. Eksperimentin bu hissəsinin nəticələri aşağıdakı göstəricilərdə öz əksini tapmışdır: nəzarət siniflərin şagirdləri buraxılmış səhvlərin 27,9%-ni, eksperimental siniflərin şagirdləri isə 49,2%-ni aşkara çıxardılar.

Qeyd edək ki, şagirdlər artıq müəllimin onların fəaliyyətinə verdiyi qiymətləri bildikdən sonra da səhv axtarışında olurlar. Nəticələr qiymətləndirildikdən sonra, bu qiymətlərin bilinməsinin şagirdin özünənəzarət fəaliyyətinə hansı təsiri göstərə biləcəyi baxımından belə bir mənzərə yaranır: nəzarət siniflərində yüksək ("4" və ya "5") qiymət almış şagirdlər edilən səhvlərin 75%-ni görmədilər və "2" və ya "3" alan, lakin əslində "4" və ya "5"-ə layiq olan şagirdlər yazıda olmayan səhvlər "kəşf etdilər", yəni doğru yazılmış sözlərin bəzilərinə səhv kimi yanaşdılar. Eksperimental siniflərdə, hər iki halda, şagirdlər buraxılmış səhvlərin, demək olar ki, yarısını (49,2%-ni) aşkar etdilər.

Eksperimentin eyni mərhələsinin ikinci hissəsinin materiallarına əsasən (cədvəl 4.2.3.-ə bax) müəyyənləşdirmişlər ki, nəzarət siniflərində şagirdlərin 52,4%-i müəllimin qiymətləndirməsi ilə tənqidsiz razıdırlar. Reallıqda isə şagirdlərin 14,3%-i daha yüksək, 38,1%-i isə aşağı qiymətə layiq idi. Beləliklə, məktəblilər "layiqli" qiymət aldıqlarına əmindirlər və onu tənqidi təhlil etmirlər. Eksperimental siniflərdə eyni məzmunlu məlumatlar fərqli şəkildə təqdim olunur: burada 40,9% müəllimin qiymətləndirməsi ilə razılaşdı (onlardan 27,3%-i daha yüksək, 13,6%-i isə aşağı qiymətə layiq idi).

Nəzarət siniflərində şagirdlərin 47,6%-i, eksperimental siniflərdə isə müvafiq olaraq 59,1%-i müəllimin qiymətləndirməsi ilə razılaşmayıb. Nəzarət siniflərində şagirdlərin göstərilən sayından yalnız 14,3%-i daha yüksək qiymətə layiq olduqları qənaətinə gəldirlər. Eyni fikirdə eksperimental siniflərdə müəllimin qiyməti ilə razılaşmayan və daha yüksək qiymətə layiq olduqlarını iddia edən şagirdlərin sayı 36,4%-dir.

Eksperimentin ikinci mərhələsinin son nəticələri göstərir ki, eksperimental sinif şagirdlərinin özünənəzarət qabiliyyətləri nəzarət siniflərində oxuyan şagirdlərə nisbətən daha çox inkişaf etmişdir. Onlar öz işlərinə daha çox tənqidi yanaşır, təlim fəaliyyətlərini təhlil edir, nəzarət siniflərin şagirdlərilə müqayisədə xeyli çox sayda səhvləri tapır və düzəldir, üstəlik, müəllimin qiymətləndirməsinə daha tənqidi yanaşır, onunla razılaşmır, aldığı qiymətlərin obyektiv olaraq qaldırılmasını və ya azalmasını tələb edir və fikirlərini əsaslandırırlar.

**Cədvəl 4.2.3.**

**Eksperimentin II mərhələsinin II hissəsinin nəticələri**

| № | Məktəblər | Siniflər | Şagirdlərin sayı | Qiymətlə razılaşanlar | | Qiymətlə razılaşmayanlar | |
|---|---|---|---|---|---|---|---|
| | | | | Daha yüksək qiymətə layiq olanlar | Aşağı qiymətə layiq olanlar | Daha yüksək qiymətə layiq olanlar | Hesab edirlər ki, aşağı qiymətə layiqdirlər |
| 1. | Gəncə şəhəri 8№-li tam orta məktəb | 3-"C" eksp. | 29 | 7 24,1% | 4 13,8% | 11 38,0% | 7 24,1% |
| | | 3-"B" kont. | 24 | 3 12,5% | 9 37,5% | 4 16,7% | 8 33,3% |
| 2. | Gəncə şəhəri 8№-li tam orta məktəb | 3-"A" eksp. | 26 | 8 30,8% | 4 14,4% | 9 34,6% | 5 19,2% |
| | | 3-"C" kont. | 29 | 4 13,8% | 12 41,4% | 3 10,3% | 10 34,5% |
| 3. | Göy-göl rayonu Üç təpə kənd orta məktəbi | 3-"B" eksp. | 21 | 5 23,8% | 2 9,5% | 8 38,1% | 6 28,6% |
| | | 3-"A" kont. | 18 | 2 11,1% | 7 38,9% | 3 16,7% | 6 33,3% |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 4. | Daşkəsən rayonu Xoşbulaq kənd orta məktəbi | 3 eksp. | 11 | 3<br>27,3% | 2<br>13,2% | 4<br>36,3% | 2<br>18,2% |
| 5. | Daşkəsən rayonu Qabaqtəpə kənd orta məktəbi | 3 kont. | 12 | 1<br>8,4% | 4<br>33,3% | 3<br>25,0% | 4<br>33,3% |
| 6. | Eksperimentin yekun nəticəsi | III sinif eksp. | 22 | 6<br>27,3% | 3<br>13,6% | 8<br>36,4% | 5<br>22,7% |
| 7. | Eksperimentin yekun nəticəsi | III sinif kont. | 21 | 3<br>14,3% | 8<br>38,1% | 3<br>14,3% | 7<br>33,3% |

Tədqiqatla bağlı aşağıdakı **ümumi nəticələrə** gəlmək mümkündür:

1. Nəzarət və özünənəzarət şəxsiyyətin psixoloji xüsusiyyətlərindən biridir, onun fəaliyyətinin və davranışının aktiv özünü tənzimləməsinin əsasını təşkil edən xüsusiyyətidir. Eyni zamanda, özünənəzarət insanın şüurlu fəaliyyətinin tərkib hissəsi, onun struktur elementidir. Bu, yalnız tamamilə müstəqil iş üçün deyil, həm də bütün əvvəlki mərhələlərdə tapşırıqları yerinə yetirərkən, onların sadə təkrarından başlayaraq, xarici nəzarət altında həyata keçirilən sınaq hərəkətlərini yerinə yetirərkən lazımdır.

2. Nəzarətin həyata keçirilməsində həlledici amil şagirdlərin zehni fəaliyyətidir ki, bunsuz real ilə düzgün arasındakı fərqləri görmək, onların uyğunsuzluğunun səbəblərini təhlil etmək və düzəltmə yollarını seçmək mümkün deyil. Nümunənin mənimsənilməsində təfəkkür də mühüm rol oynayır.

3. Tədris – idraki fəaliyyət o zaman mükəmməl hesab edilə bilir ki, digər zəruri komponentlərlə bərabər, qiymətləndirmə komponenti də bu fəaliyyətin tənzimləyici komponenti kimi fəaliyyət göstərsin. Aktivliyin qiymətləndirmə şərti kimi nəzarət və özünənəzarət təhsil fəaliyyətinin hər hansı bir mərhələsini və ya

fəaliyyətin bütün gedişatını müşayiət etməlidir. Bu halda səhvlərin və qeyri-dəqiqliyin qarşısını almaq mümkün olur.

4. Kiçikyaşlı məktəblilərin təhsil fəaliyyətinə nəzarət və özünənəzarətin daxil edilməsi yalnız xüsusi məqsədyönlü iş şəraitində mümkündür. Bu bacarıqların inkişafı məzmunlu qiymətləndirmə şəklində təlim prosesinə səmərəli təsir göstərir və bu qiymətləndirmə fəaliyyəti şagirdin öz öhtəsinə düşür.

5. Nəzarət və özünənəzarət bacarıqlarının formalaşdırılması xüsusi tərtib olunmuş elə tapşırıqlara əsaslanmışdır ki, həmin tapşırıqlar bir tərəfdən şagirdlərdə nəzarət və özünənəzarət motivi yaradır, digər tərəfdən isə, onlara bu fəaliyyət formalarından və qiymətləndirmə etalonundan istifadə etmələrinə və müstəqil olaraq yeni etalonlar tərtib etmələrinə kömək göstərir.

6. Təlim prosesində müəllim kiçikyaşlı məktəblilərə öz təlim fəaliyyətlərini tənqidi təhlil etməyi, öz işlərində səhvləri axtarıb düzəltməyi, hansı nailiyyətləri qazandığını və həm də nələrə nail ola biləcəyini mülahizə etməyi öyrətməlidir. Müəllim şagirdlərin nəzarət və özünənəzarət, qiymətləndirmə və özünüqiymətləndirmə nəticələrini ciddi müzakirə etməli, öz qiymətləndirməsində onları nəzərə almalıdır.

7. Müəllim şagirdlərdə ardıcıl olaraq fəaliyyət standartlarını və onların nəticələrini formalaşdırmalı, bunun əsasında nəzarət və özünənəzarəti həyata keçirməyi, onlara bu etalonlara uyğun hərəkət etməyi öyrətməlidir.

8. Tapşırıqların məzmunu çox vaxt kiçikyaşlı şagirdlərin müxtəlif tapşırıqları yerinə yetirərkən buraxdıqları tipik səhvlərlə bağlı olur. Müəllim bu səhvləri yeni məşqlərə daxil etməli və bununla da şagirdlərə onları tapmaq və düzəltmək imkanı yaratmalıdır.

9. Müəllim özünün qəsdən buraxdığı, şagirdləri həvəsləndirə bilən, öz fikrini söyləməyə məcbur və müəllimlə "mübahisə" etməyə vadar edən "səhv"lərə əsaslanan metodik üsullardan istifadə etməyə xüsusi diqqət yetirməlidir. Bu şəraitdə müəllim şagirdlərlə işgüzar münasibətlərin formasını və gedişatını daha aydın müşahidə edə bilir.

Tədqiqatla bağlı aşağıdakı **təklifləri** irəli sürmək mümkündür:

1. Biz kiçikyaşlı məktəblilərin təlim fəaliyyətində nəzarət və özünənəzarət bacarıqlarının formalaşdırılması problemini tədqiqata

cəlb etdik. Yeniyetmələrin və yuxarı sinif şagirdlərinin təlim fəaliyyətində nəzarət və özünənəzarət bacarıqlarının formalaşdırılması problemləri sahəsində də tədqiqatların aparılması məqsədəuyğundur.

2. Ümumtəhsil məktəblərində olduğu kimi ailədə də kiçikyaşlı məktəblilərin təlim fəaliyyətində nəzarət və özünənəzarət bacarıqlarının formalaşdırılmasının diqqət mərkəzində dayanması məsləhətdir.

3. Kiçikyaşlı məktəblilərin nəzarət və özünənəzarət bacarıqlarının formalaşdırılması üzrə işin təlim xarakterli sinifdənxaric tədbirlər zamanı da nəzərə alınması faydalı olardı.

**Dissertasiyanın əsas məzmunu, tədqiqatda irəli sürülən başlıca ideyalar, əldə olunan nəticələr müəllifin çap olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Совершенствование системы учебной деятельности в начальных классах: педагогический эксперимент в современной азербайджанской школе. // Педагогическая наука и образование. Республика Беларусия. Минск, 2019, № 4(29), s.83-87.
2. Nəzarət və özünənəzarətin formalaşdırılmasında tədris çalışmalarından istifadə.// Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2020, №4, s.153-156.
3. Fərdi yanaşma zamanı nəzarət və özünənəzarətin formalaşdırılması imkanları. // Gəncə Dövlət Universiteti. Elmi xəbərlər. Fundamental, humanitar və təbiət elmləri seriyası. Gəncə, 2020, № 4, s.150–152.
4. Kollektiv fəaliyyət prosesində nəzarət və özünənəzarətin formalaşdırılması probleminə dair. // Azərbaycan Respublikası Təhsil İnstitutu. Elmi əsərlər. Bakı, 2020, № 2(87). s. 37-39.
5. Fərdi iş prosesində nəzarət və özünənəzarətin formalaşdırılması yolları və vasitələri. // Azərbaycan Respublikası Təhsil İnstitutu. Elmi əsərlər. Bakı, 2021, № 1(88). s. 71-74.
6. Начальные этапы развития навыков самоконтроля у младших школьников. // Московский Государственный Институт Культура. Актуальные проблемы педагогики и психологии. Материалы VI Международной конференции. г.Москва, 09 февраля 2021. с.103-105.

7. Средства формирования самоконтроля учащихся в процессе индивидуальной работы // Московский Государственный Институт Культура. Артпедагогика и артпсихология в век инноваций. Сборник статей по материалам IV Международной научно-практической конференции. г.Москва, 11 октявря 2022. с.61-66.
8. Kiçikyaşlı məktəblilərin təlim fəaliyyətində nəzarət və özünənəzarətin funksiyası. // Sumqayıt DU. "Azərbaycanda dövlət müstəqilliyinin bərpası və ölkənin siyasi, sosial-iqtisadi, mədəni inkişafı" mövzusunda beynəlxalq elmi konfrans. Sumqayıt, 13-14 aprel 2023, s.112-114.
9. Kiçikyaşlı məktəblilərin nəzarət və özünənəzarətinin praktik vəziyyəti. // Naxçıvan Dövlət Universiteti. Respublika elmi-praktik konfransın materialları. Naxçıvan, 04-05 may 2023, s.126-127.
10. Kollektiv iş prosesində nəzarət və özünənəzarət bacarıqlarının formalaşdırılması imkanları. // Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2023, №1, s.278-280.
11. Nəzarət və özünənəzarətin formalaşmasına xidmət edən tapşırıqlar üzərində kollektiv işin təşkili. // Azərbaycan Respublikası Təhsil İnstitutu. Elmi əsərlər. Bakı, 2023, № 1(88). s. 80-83.
12. Nəzarət və özünənəzarət bacarıqları zəif inkişaf etmiş şagirdlərlə təlimin təşkili xüsusiyyətləri. // Bakı şəh., "Pedaqogika" elmi-metodik jurnalı, 2023, № 1, s.98-103.
13. Tapşırıqlar vasitəsilə kiçikyaşlıarda nəzarət və özünənəzarətin formalaşdırılması. // Gəncə Dövlət Universiteti. Elmi xəbərlər. Fundamental, humanitar və təbiət elmləri seriyası. Gəncə, 2023, № 1, s.215–221.
14. Практическое состояние сформированности контроля и самоконтроля у младших школьников в азербайджанских школах // Артпедагогика и артпсихология в век инноваций. Московский Государственный Институт Культура. Сборник статей по материалам V Международной научно-практической конференции. г.Москва. 04 октября 2023.

Dissertasiyanın müdafiəsi 12 yanvar 2024-cü il tarixində saat 11⁰⁰ Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Naxçıvan MR, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1, AZ7003, Naxçıvan Müəllimlər İnstitutu

Dissertasiya ilə Naxçıvan Müəllimlər İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Naxçıvan Müəllimlər İnstitutunun rəsmi internet saytında (www.nmi.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 9 dekabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 05.12.2023.

Kağızın formatı: 60x84 1/16

Həcm: 38572 işarə

Tiraj: 100